2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il tarixli 72 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 11 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzrə qeydə alınmış namizəd Məmmədov Telman Nizaməddin oğlunun 10 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) ərizə ilə müraciət edərək həmin seçki dairəsi üzrə 25 və 26 saylı seçki məntəqələrində qanun pozuntularına yol verildiyini və dairə seçki komissiyasının 26 dekabr 2019-cu il tarixli 51/120 və 28 dekabr 2019-cu il tarixli 51/125 saylı seçki məntəqələrində qanun pozuntularının baş verdiyini və bununla bağlı müvafiq tədbir görülməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il tarixli 72 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq icraata qəbul edilmişdir.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, o, seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmişdir və bu səbəbdən də müraciətin ərizəçilərə geri qaytarılması üçün əsas yaranmışdır.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci yarımbəndinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzrə qeydə alınmış namizəd Məmmədov Telman Nizaməddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il tarixli 72 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov